*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 95-99* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.95*

# Azərbaycanın Meşə Naziri Nəcəf Bəy Vəzirov

**Əzizə Ələkbərova**
Böyük elmi işçi
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
E-mail: aalekberli@mail.com

**Annotasiya.** 2024-cü il 21 noyabrda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "İqlim, təbiət və insanlar üçün meşə: Meşələr üçün iqlim maliyyəsinin artırılması" mövzusunda toplantı keçirilmişdir. Azərbaycanda meşələrin əhəmiyyəti, yaşıllıqların faydası, meşələrin azaldılmasının iqlimə mənfi təsirləri və oxşar mövzularda ölkəmizdə ilk məqalələri Həsən bəy Zərdabi yazmışdır. Həsən bəydən sonra Nəcəf bəy Vəzirov da "Əkinçi" qəzetinin 19 dekabr 1875-ci il, №11-də dərc etdirdiyi ilk mətbu əsərində Petrovski-Razumovski Akademiyasında nəzəri bilikləri öyrənməklə yanaşı, meşə sahəsi yaradıb təcrübə aparmaqlarından bəhs edir. Kamran Məmmədov yazır: *"O, meşəçilik sənətini təsadüfi sevməmişdir. Hələ Bakıda realnı gimnaziyada oxuyarkən Həsən bəy Zərdabinin dediyi təbiət dərslərinin təsiri nəticəsində məhz kənd təsərrüfatı akademiyasına daxil olmuş və oranın meşəçilik şöbəsini müvəffəqiyyətlə bitirmişdir"* [4, s.27]. Azərbaycan meşələri haqqında ilk əsər yazan Nəcəf bəy Fətəli bəy oğlu Vəzirovun həyatı, yaradıcılığı dövrümüzdə həm də ekologiya ilə bağlı araşdırma edən Azərbaycan tədqiqatçılarının diqqət mərkəzindədir.
**Açar sözlər:** təhsil, məktəb, meşəbəyi, "Azərbaycan" qəzeti, dövri mətbuat, Nəcəf bəy Vəzirov

**Məqalə tarixçəsi:** göndərilib – 09.04.2025; qəbul edilib – 22.04.2025

# Azerbaijan Forestry Minister Najaf Bey Vazirov

**Aziza Alakbarova**
Senior researcher
ANAS Institute of Manuscripts named after Muhammad Fuzuli
E-mail: aalekberli@mail.com

**Abstarct.** On November 21, 2024, a meeting on "Forest for climate, nature and people: Increasing climate finance for forests" was held within the framework of the 29th session of the Conference of the Parties to the UN Framework Convention on Climate Change (COP29). Hasan Bey Zardabi wrote the first articles in our country on the importance of forests in Azerbaijan, the benefits of greenery, the negative effects of reducing forests on the climate and similar topics. After Hasan Bey, Najaf Bey Vazirov talks about creating a forest area and conducting experiments along with learning theoretical knowledge at the Petrovsky-Razumovsky Academy in his first printed work published in "Akinchi" newspaper on December 19, 1875, No. 11. Kamran Mammadov wrote, "*He did not love the art of forestry by chance. As a result of the nature lessons taught by Hasan Bey Zardabi, he entered the agricultural academy and successfully graduated from the forestry department"* [4, pg.27]. The life and creative works of Najaf Bey Vazirov, who wrote the first work on the forests of Azerbaijan, is in the focus of Azerbaijani researchers who conduct research on ecology in our time.
**Keywords:** education, school, forester, "Azerbaijan" newspaper, periodical, Najaf Bey Vazirov

**Article history:** received 09.04.2025; accepted − 22.04.2025

## Giriş / *Introduction*

Şuşa şəhərində anadan olan Nəcəf bəyin babası Qulu bəy Qarabağın Zümürxaç kəndindəki nüfuzlu bəylərdən olsa da, atası Fətəli bəy tamamən müfsilləşmişdir. Zaman Əsgərli "Nəcəf bəy Vəzirov" kitabında yazır: *"Şuşadan bir qədər aralı olub, gözəl təbiəti və axar-baxarlı görünüşü ilə seçilən Zümürxaç kəndi uzun müddət Vəzirovlar nəslinin ixtiyarında olmuş, onlar bu kənddə yaxşı ömür sürmüşlər. Lakin zaman keçdikcə bu nəsil öz mülklərini itirmiş, Vəzirovun atası Fətəli bəy isə tamamilə kasıb bir vəziyyətə düşmüşdür.*

*Fətəli bəy vaxtından gec evlənmiş, ailənin dörd övladı olmuşdur: Nəcəf bəy, Məmməd bəy, Güllü xanım, Aftab xanım Fətəli bəy atasının xatirəsinin əbədiləşdirmək üçün ilk övladına onun adını qoymuşdur"* [8, s.5]. Lakin Zaman Əsgərli Vəzirovun babasının adını düzgün qeyd etməmişdir. Tədqiqatçı Ənvər Çingizoğlu da, akademik Rafael Hüseynov da Nəcəf bəyin babasının adını Qulu olduğunu yazırlar: "XIX yüzilin sonlarının, XX yüzilin əvvəllərinin dərvişi olan bu gənc – Nəcəf bəy Vəzirov əslən bəy nəslindən idi – babası Qulu bəy Qarabağın nüfuzlu bəylərindən olmuşdu, atası Fətəli isə kasıblamış bəylərdən idi" [7].

Ə.Ələkbərova "Nəcəf bəy Vəzirov irsi" adlı məqalədə qeyd edir: *"Yazıçının atası Fətəli bəy Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin müşavir-məsləhətçisi olmuş Mirzə Əliməhəmməd ağanın ikinci övladı Mirzə Xanməhəmməd ağanın nəslindəndir. Anası Mina xanım məşhur Mehmandarovlar nəslindən olan Həsən bəy Mehmandarovun qızıdır"* [2, s.398].

## Əsas hissə / *Main Part*

XIX əsrdə Azərbaycanda, xüsusən bölgələrdə təhsil dini və ənənəvi üsullarla aparılırdı. Şuşada mədrəsə məktəbində təhsil alan Nəcəf bəy buradakı molla təhsilinə qane olmayaraq 1867-ci ildə qohumlarının köməkliyi ilə Şuşadakı mülkiyyə məktəbinə daxil olur: *"Məni on iki yaşında məktəbə göndəriblər. Üç ayın ərzində Quran oxumağı öyrənib, yazıya başladım. Bir ildən sonra məni Şişə şəhərinin mülkiyyə məktəbinə verdilər. Burada məni bir müəllimə tapşırdılar ki, kardon üzərində yazılmış rus əlifbasını mənə təlim etsin. Mənim yeni müəllimim Mıkırtıç adlı bir erməni idi. Bu zalım adət etdiyindən məni haqqa və nahaqqa ya kardon ilə və ya əl ilə döyərdi. Axırda bu işgəncələrə davam etməyib məktəbdən qaçmağa məcbur oldum. Xiş əqvamından birisi məni istedadsız bilərək öz yanına alıb rus qəvaidilisaniyyəsinə aşina etməyə çalışdı ki, bəlkə məni kənd mirzəliyinə qəbul eləsinlər. 1868-ci ildə anamın göz yaşına baxmayıb, dərs oxumaq üçün qaçıb Bakıya gəldim"* [5, s.7].

Bakıda realnı gimnaziyanın ikinci sinifinə daxil olan Nəcəf bəy 1874-cü ildə oranı akademik mükəmməlliyinə görə gümüş medalla bitirir. Bir zaman əqrabalarının "istedadsız" bildiyi Nəcəfin akademik naliyyətləri yazılan şəhadətnamə onun oxumaq istəyinin göstəricisidir:

*"Şəhadətnamə*

*Bu şəhadətnamə keçmiş Bakı realnı gimnaziyasının (indiki realnı məktəbin) VII sinif tələbəsi, Məhəmməd ümməti Nəcəfqulu bəy Fətəli bəy oğlu Vəzirova verilir. Ondan ötrü ki, o, 1868-ci ilin sentyabr ayında imtahan verərkən Bakı realnı progimnaziyasının (sonra realnı gimnaziyanın) 2-ci sinfinə daxil olmuş, özünü əla əxlaqla aparmışdır.*

*Bu il VII sinfin tələbəsi kimi o, gimnaziya kursu üzrə keçilən fənlərin son imtahanlarından aşağıdakı qiymətləri almışdır:*

| | | |
|---|---|---|
| *Şəriət* | ............................ | *Əla (5)* |
| *Rus dili* | ............................ | *Əla (5)* |
| *Rus ədəbiyyatı* | ............................ | *Yaxşı (4)* |
| *Fransız dili* | ............................ | *Yaxşı(4)* |
| *Alman dili* | ............................ | *Yaxşı(4)* |
| *Rus tarixi* | ............................ | *Yaxşı(4)* |
| *Ümumi tarix* | ............................ | *Yaxşı(4)* |
| *Rus coğrafiyası* | ............................ | *Yaxşı(4)* |
| *Ümumi coğrafiya* | ............................ | *Yaxşı(4)* |
| *Fiziki coğrafiya və riyaziyyat* | ............................ | *Əla (5)* |
| *Hesab* | ............................ | *Əla (5)* |
| *Cəbr* | ............................ | *Əla (5)* |
| *Həndəsə* | ............................ | *Əla (5)* |

| | | |
|---|---|---|
| Triqonometriya | ........................... | Əla (5) |
| Fizika | ........................... | Əla (5) |
| Kimya | ........................... | Əla (5) |

**Təbiət tarixi**

| | | |
|---|---|---|
| Zoologiya | ................................. | Yaxşı (4) |
| Botanika | ................................. | Yaxşı (4) |
| Mineralogiya | ................................. | Yaxşı (4) |
| Anatomiya və fiziologiya | ................................. | Yaxşı (4) |
| Rəsmxət | ................................. | Kafi(3) |

*Bütün fənlərdən nəticə olaraq orta qiymət dörd (4) almışdır. Hazırda qüvvədə olan qanuna əsasən Vəzirova Bakı realnı gimnaziyasının tam kursunu qurtarması haqqında şahədətnamə verilir. O, gimnaziyaların və progimnaziyaların 1864-cü il 19 noyabrda təsdiq olunmuş ustavının 123-cü paraqrafında göstərilən güzəştlərdən istifadə etmək hüququna malikdir.*

*Həmin vəsiqə Bakı realnı məktəbinin 1874-cü il 12 iyunda olmuş pedaqoji soveti tərəfindən verilir.*

*Bakı, 14 iyun, 1874-cü il.*

| | |
|---|---|
| *Direktor, həqiqi mülki müşavir* | *K.Çernov.* |
| *İnspektor əvəzi, nadvornı sovetnik* | *İ.Qerm.* |
| *Fizika və kimya müəllimi* | *B.Novikov* |
| *Rus dili müəllimi* | *Q.Klimovski* |
| *Təbiət tarixi müəllimi* | *Həs.Məlikov* |
| *Fransız dili müəllimi* | *Y.Dorye* |
| *Alman dili müəllimi* | *K.Preymqouç* |
| *Rəsmxət və hüsnxət müəllimi* | *P.Xodoroviç* |

[1, 1006-1007].

Nəcəf bəy istedadlı şagird kimi anlayırdı ki, xalqının maariflənməsi, mədəni inkişafı və milli oyanışı üçün ali təhsil almalıdır. XIX əsrdə yaşamasına, yaşının kiçik olmasına baxmayaraq, Nəcəf bəy düşünürdü ki, niyə maliyyə çətinlikləri onun təhsilini davam etdirməsinə maneə törətməlidir. O, gələcək təhsil xərclərini qarşılamaq məqsədilə gimnaziyada oxuduğu zamanlarda zəngin ailələrin uşaqlarına ödəniş qarşılığında dərs deyirdi: *"Gimnaziyanı qurtaranadək altı yüz manat para toplamışdım. Bu paradan savayı heç kimsədən müavinət gözlədiyim yox idi. Bununla bərabər heç bir şeydən xof etməyib Peterburqda darülfünuna daxil oldum. Bakıdan hərəkət etdiyimdən əvvəl dövlətli xişü əqvamıma neçə məktublar yazıb, dərdi-dilimi izhar etməklə müavinətlərini istədim. Onlar nəinki maddi kömək, hətta məktub yazmağa belə tənəzzül buyurmadılar.*

*Peterburqda batdağ qızdırmasına girftar oldum. ...1874-cü ilin sentyabrın 27-də Moskvaya gəldim və Petrovski Akademiyasına daxil oldum"* [5, s.11].

Maksim Qorkinin "rus yazıçısının ideal obrazı" adlandırdığı, Sankt-Peterbuq Elmlər Akademiyasının fəxri akademiki, yazıçı Vladimir Qalaktionoviç Korolenko ilə eyni illərdə həmin universitetdə oxumuş və Nəcəf bəy onunla dostluq etmişdi. Tələbə vaxtlarında inqilabi hərəkata qoşulan Korolenko 1876-cı ildə Petrovski Kənd Təsərrüfatı Akademiyasından qovulur. Nəcəf bəy də Korolenko kimi fəal mübariz olmuş və ümumi məqsəd uğrunda Qafqaz regiondan olan tələbələrə liderlik edərək mübarizə aparmışdılar: *"Fəlsəfə elmləri doktoru Z.Göyüşovun (bax: "Бакинский рабочий" qəzeti, 1963-cü il, 17 avqust) Moskvada Mərkəzi Dövlət Oktyabr İnqilabı Arxivində (fond №109) Zərdabi və Vəzirov haqqında yeni tapdığı sənədlər əsasında deyə bilərik ki, Vəzirov 1878-ci ildə Moskvada "İmdadiyyə" adlı dərnək təşkil etmişdir. Dərnək, hətta çarın siyasi polisinin ali orqanı olan üçüncü şöbənin də diqqətindən yayınmamışdır. "İmdadiyyə" haqqında üçüncü şöbənin sorğusuna cavab olaraq Moskva quberniya jandarm idarəsi (20 mart, 1878-ci il) bildirmişdir ki, "... Qafqaz əhli Vəzirov Akademiyanın meşəçilik şöbəsinin dördüncü kursundadır. Qafqazlı tatar tələbələrin dərnək təşkilatçısı hesab edilən Vəzirov zərərli, dövlət əleyhinə olan möhkəm əqidəsi ilə öz dərnəyinə qüvvətli təsir göstərir".*

*Bu zaman Peterburq Texnoloji İnstitutunda təhsil alan Əbülfət Şahtaxtinski də Vəzirovla əlaqə saxlayırdı. O, 1878-ci il 3 mart tarixli məktubunda Vəzirova yazırdı: "...Mən "İmdadiyyə"nin nizamnaməsini aldım... Bizim məqsədimiz çirkinliklərin kökünü kəsən çoxlu əllər hazırlamaqdır. Biz ağlın qüvvəsiyik, bizim silahımız bilikdir. Biz cəhalət, avamlıq əleyhinə mübarizə aparmalıyıq..." və s.*

*"İmdadiyyə"nin üzvləri H.M.Zərdabini özlərinə rəhbər seçmək və "Əkinçi" qəzetini də təzədən açıb əsas fəaliyyət mərkəzinə çevirmək istəmişlər"* [4, s.25-26].

1878-ci ildə Qafqaz Canişinliyi Baş idarəsinin nəzdindəki Dövlət Mülkiyyəti idarəsi tərəfindən Yelizavetpol (Gəncə) quberniyasının Tərtər nahiyəsinə meşəbəyi təyin edilən N.Vəzirov artıq 1882-ci ildə rütbəsi artırılaraq birinci dərəcəli meşəbəyi vəzifəsinə layiq görülmüşdür.

Vəzirov meşəbəyi işlədiyi zamanda yazdığı əsərlərdən biri də "Palıd" əsərdir. 1880-ci ildə yazılan əsər Azərbaycanda meşələr haqqında ilk elmi əsər M.Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilir və 63 vərəqdən ibarətdir [6].

1887-ci il 22 yanvar tarixində Dövlət Senatı qərarı ilə işində əla xidmətinə görə Vəzirova quberniya katibi rütbəsində meşəçilik işi üzrə "Həqiqi student" adı verilərək vəzifəsi yüksədilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Nəcəf bəy daha yüksək vəzifəyə təyin edilir:

*"**Hökumət Qərardadı***
***Ərazi Nəzarətindən***
***Əmr nömrə 44***

*Altıağac meşəliyinin 2-ci dərəcəli meşəbəyisi V.T.Vartanov təşrini-əvvəlin (oktyabrın) 1-dən xaric edilir.*

*Ərazi naziri: X[osrov bəy] Sultanov*

***Əmr nömrə 46***

*Nəcəf bəy Vəzirov Azərbaycan Cümhuriyyətinin Baş Meşəbəyi müfəttiş[i] və müvəqqəti Meşə naziri təyin edilir.*

*Ərazi naziri: X[osrov bəy] Sultanov"* [3, s.1]

## Nəticə / *Conclusion*

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra da Nəcəf bəy Vəzirov 1921-ci ildən ömrünün sonunadək Ağamalıoğlu adına Kənd Təsərrüfatı Suvarma texnikumunda meşəçilik üzrə mütəxəssis-müəllim işləmişdir. 10 may 1924-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı Nəcəf bəy Vəzirova hər ay 78 rubl məbləğində professor məvacibi verilməsi haqqında vəsiqə imzalamışdır.

1926-cı ildə Şamaxı qəzasının Çuxuryurd kəndində meşədə təcrübə zamanı ürəktutmasından vəfat etmiş, ədib Bakıda dəfn edilmişdir.

## Ədəbiyyat / *References*


1. Ədilə Əliyeva. N.Vəzirovun həyatı haqqında yeni sənədlər, "Azərb. SSR Elmlər Akademiyasının Məruzələri", 1956, №3
2. Əzizə Ələkbərova. Nəcəf bəy Vəzirov-"Milli irfana xidmət etmiş nadir sima", – Bakı, 2021. 418 səh., s. 398
3. "Hökumət Qərardadı. Ərazi Nəzarətindən. Əmr nömrə 44". "Azərbaycan" qəzeti, 10 təşrini-əvvəl (oktyabr), sənə 1918, s.1 №11 − AMEA ƏYİ, DM-101
4. Məmmədov K.D. Nəcəf bəy Vəzirov. – Bakı: Azərnəşr, 1995, 203 səh.
5. "Nəcəf bəy Vəzirov" (kitabça). – Bakı: 1913, 22 səh., s.7.− AMEA ƏYİ, f. 4, s.v.73.
6. "Palıd" əsəri, ümumi dəftər, 63 vərəq.− AMEA ƏYİ, f. 4, s.v.1.
7. Rafael Hüseynov. "O, bir başqa Dərviş idi – Rafael Hüseynov yazır", 525-ci qəzet, 8 aprel 2024
8. Zaman Əsgərli. Nəcəf bəy Vəzirov. – Bakı: Şuşa, 1998, 56 səh.

## Министр Лесного Хозяйства Азербайджана Наджаф Бей Везиров

**Азиза Алекперова**
Старший научный сотрудник
Институт рукописей имени Мухаммеда Физули НАНА
E-mail: aalekberli@mail.com

**Резюме.** 21 ноября 2024 года в рамках 29-й сессии Конференции сторон Рамочной кон-венции ООН об изменении климата (КС29) состоялась встреча на тему “Лес для климата, природы и людей: увеличение финансирования лесов в целях борьбы с изменением кли-мата”. Гасан бей Зардаби написал первые в нашей стране статьи о важности лесов в Азер-байджане, пользе зеленых насаждений, негативном влиянии сокращения лесов на климат и подобных темах. После Гасан-бека Наджаф-бек Везиров в своей первой печатной работе, опубликованной в газете “Экинчи” от 19 декабря 1875 года, № 11, о создании лесного массива и проведении опытов наряду с изучением теоретических знаний в Петровско-Разумовской академии говорит Наджаф-бек Везиров. Камран Мамедов писал: “*Лесное искусство он полюбил не случайно. В результате уроков природы, преподаваемых Гасан-беком Зардаби, он поступил в сельскохозяйственную академию и успешно окончил лесное отделение”* [4, с.27]. Жизнь и творчество Наджаф-бека Везирова, написавшего первый труд о лесах Азербайджана, в наше время находятся в центре внимания азербайджанских исследователей, ведущих исследования по экологии.
**Ключевые слова:** *образование, школа, лесник, газета «Азербайджан», периодическое издание, Наджаф-бек Везиров*